# Azərbaycanın tarixi İpək Yolu təcrübəsi və perspektivləri

**Dünya tarixinə nəzər saldıqda, bütün dövrlərdə müxtəlif xalqlar və regionlar arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsinin bəşəriyyətin tərəqqisinə güclü təkan verdiyini görmək mümkündür. Bu gün "qloballaşma" deyilən fenomenin tarixi mahiyyətini anlamaq üçün qədim zamanlarda və orta əsrlərdə mövcud olmuş transkontinental ticarət yollarına diqqət yetirmək lazımdır. Çünki onların vasitəsilə ayrı-ayrı qitə və bölgələr arasında yalnız əmtəə mübadiləsi həyata keçirilmirdi. Tarixən beynəlxalq karvan və dəniz yolları müxtəlif ölkələrdən olan insanların bir-biri ilə təmasa keçmələri, ticarətlə məşğul olmaları və fərqli mədəniyyətlər haqqında məlumat əldə etmələrinə imkan yaradırdı. Beləliklə, bu yollar iqtisadi məqsədlərlə qurulsa da, nəticə etibarilə xalqlar arasında mədəni kommunikasiya vasitələri rolunu yerinə yetirirdilər. Ən qədim dövrlərdən başlayaraq, elmi biliklər, dini təlimlər və mədəni nailiyyətlərin yayılması məhz bu yollar üzərindən baş verirdi.**

Bunun ən bariz nümunəsi bəşər tarixində möhtəşəm yer tutan və yüzilliklərlə Şərq və Qərb sivilizasiyalarını, Çin ilə Aralıq dənizi arasındakı mədəniyyətləri bir-birinə bağlayan qədim İpək Yoludur. Onun tarixi eramızdan əvvəl 2-ci yüzillikdə başlamış və təqribən eramızın 16-cı əsrinin əvvəllərinə qədər davam etmişdir. Təbii ki, bu uzun zaman kəsiyində İpək Yolu eyni intensivliklə fəaliyyət göstərməmiş, özünün yüksəliş və tənəzzül dövrlərini yaşamışdır.

Tarixən türk xalqları Çinlə Qərb arasında baş verən beynəlxalq ipək ticarətində fəal rol oynamışlar. Hələ eramızın 6-7-ci əsrlərində Uzaq Şərqlə Qara dəniz arasında əngin Avrasiya ərazilərini birləşdirən Türk xaqanlığı İpək Yolunun əsas marşrutlarına nəzarət edir, Çin, Sasani imperiyası və Bizans arasında beynəlxalq ticarətdə önəmli yer tuturdu. Daha sonra Uyğur xaqanlığı, Qaraxani dövləti, Səlcuqi imperiyası, Çingiz xan və Teymurilər dövlətləri dövrlərində də türklər beynəlxalq karvan ticarətini əllərində saxlamış və beləliklə, bəşər tarixinə güclü təsir göstərmişdilər.

Azərbaycanın qədim və orta əsrlər tarixi də İpək Yolu ilə sıx şəkildə bağlı olmuşdur. Qədim yunan və Roma müəlliflərinin verdiyi məlumata görə, hələ antik dövrdə Orta Asiyadan başlayan ticarət marşrutları Xəzər dənizi üzərindən keçərək, Azərbaycana (qədim Albaniyaya) gəlir, buradan isə Kür boyu Qara dənizə qədər uzanırdı. Elmdə "Strabon yolu" adı ilə şöhrət qazanmış bu trassa vasitəsilə hind və Orta Asiyanın çeşidli məhsulları Cənubi Qafqaz, Qara dəniz və oradan da Aralıq dənizinə çatdırılırdı. Qeyd edək ki, 2014-cü ildə YUNESKO-nun sifarişi ilə İCOMOS mütəxəssisləri tərəfindən hazırlanmış "İpək Yolu tematik tədqiqatı"nda bu qədim yolun tarixi əhəmiyyəti xüsusi vurğulanmışdır.

Sonralar ərəb xilafəti və Səlcuq imperiyası dövründə də Azərbaycanda beynəlxalq ticarətin və yerli təsərrüfatın inkişafı Gəncə, Şamaxı, Naxçıvan, Beyləqan, Bərdə, Dərbənd, Şabran, Təbriz, Marağa, Ərdəbil kimi şəhərlərin çiçəklənməsinə şərait yaratmışdı. 13-14-cü əsrlərdə, yəni Elxani, Qaraqoyunlu və Ağqoyunlu zamanında Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən biri idi. Azərbaycan şəhərləri məşhur beynəlxalq ticarət mərkəzlərinə çevrilmişdi. Avropa, Hindistan və Orta Asiyanın müxtəlif yerlərindən gələn tacirlər buradan ipək parça, ədviyyatlar, zinət əşyaları və digər malları alaraq, başqa ölkələrə aparırdılar. Çoxsaylı arxeoloji qazıntıların nəticələri və yazılı mənbələr deyilənləri təsdiqləyir.

Müstəqillik illərində də Azərbaycan müasir İpək Yolunun bərpası təşəbbüsü ilə çıxış edən dövlətlərdən biri olmuşdur. 1998-ci ildə Bakıda Prezident Heydər Əliyevin təşəbbüsü və bir çox Avropa və Asiya ölkələrinin başçılarının iştirakı ilə keçirilən beynəlxalq konfransda Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin (TRASEKA) yaradılması qərarı alınmışdır. Təsadüfi deyil ki, bu il 20 illiyi qeyd edilən və yeni İpək Yolunun bərpasına yönələn bu möhtəşəm layihənin daimi katibliyi ölkəmizin paytaxtında yerləşir.

Həmçinin qeyd etmək lazımdır ki, 2013-cü ildə Çin "bir kəmər - bir yol" adlı yeni iqtisadi inkişaf strategiyasını elan edib. Avrasiya ölkələri arasında qarşılıqlı əlaqələrin inkişafına yönəlmiş bu strategiyanın tərkib hissəsini "Yeni İpək Yolu iqtisadi kəməri" layihəsi təşkil edir. Azərbaycan bu layihənin fəal iştirakçısıdır. Ölkəmizdə bu sahədə bir sıra mühüm irihəcmli infrastruktur işləri həyata keçirilir. Yeni İpək Yolunun bərpasına xidmət edən layihələrin arasında yalnız Ələt qəsəbəsində inşa edilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşasını qeyd etmək kifayətdir. Bu möhtəşəm kompleksin təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 3 noyabr 2010-cu il tarixində qoyulub və tikinti işləri bu gün də sürətlə davam edir.

Eyni zamanda, Azərbaycan tarixi İpək Yolu ilə bağlı digər beynəlxalq layihələrdə də iştirak edir. Qeyd edək ki, İpək Yolunun bəşər sivilizasiyasının inkişafında oynadığı möhtəşəm rolu nəzərə alan YUNESKO bu sahədə geniş proqramlar həyata keçirir. 2018-ci ildə bu beynəlxalq təşkilat tərəfindən "İpək Yolunun - dialoq yolunun kompleks tədqiqi" adlı onillik proqramın gerçəkləşdirilməsinin 30 illiyi qeyd edilir. 1988-1997-ci illərdə YUNESKO-nun həyata keçirdiyi bu genişmiqyaslı beynəlxalq proqram çərçivəsində qədim İpək Yolu marşrutları ilə bir sıra maraqlı ekspedisiyalar təşkil edilmiş, müxtəlif ölkələrdə dünyanın tanınmış alimləri, ictimai və mədəniyyət xadimlərinin iştirakı ilə tədbirlər keçirilmiş, Çin, Yaponiya, Monqolustan, Nepal, İran, Özbəkistan kimi ölkələrdə İpək Yolunu araşdıran elmi mərkəzlər yaradılmış, çox sayda kitab və populyar əsərlər nəşr edilmişdir.

YUNESKO ilə hərtərəfli və səmərəli əməkdaşlıq edən Azərbaycan İpək Yolu ilə bağlı proqram və layihələrə fəal şəkildə qatılır. Bu sahədə Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi, Milli Elmlər Akademiyası, YUNESKO üzrə Milli Komissiyanın fəaliyyətlərini xüsusi qeyd etmək lazımdır. Belə ki, ölkəmizdə mütəmadi olaraq "İpək Yolu" beynəlxalq musiqi festivalı keçirilir, sərgilər təşkil olunur. Azərbaycanda yerləşən "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqının təşəbbüsü ilə hər il müxtəlif ölkələrdən olan gənclərin iştirak etdiyi yaradıcılıq forumları və seminarları təşkil olunur.

2013-cü ildən etibarən YUNESKO çərçivəsində İpək Yolu Onlayn Platforması adlı yeni layihə həyata keçirilməkdədir. Azərbaycanın da iştirak etdiyi bu layihə tarixi İpək Yolu üzərində yerləşən ölkələrə öz tarixi və mədəni miraslarını virtual məkanda nümayiş etdirmək imkanı yaradır. Azərbaycanın zəngin tarixini və müasir beynəlxalq əlaqələr təcrübəsini nəzərə alan YUNESKO-nun təşəbbüsü ilə bu layihənin Əlaqələndirmə Şurasının 3-cü toplantısı iki il əvvəl 7-ci Bakı Qlobal Forumu tədbirləri çərçivəsində ölkəmizdə keçirilmişdir.

Tarixi İpək Yolu ilə bağlı YUNESKO-nun həyata keçirdiyi ən həcmli proqramlardan biri "İpək Yolu abidələrinin Ümumdünya İrs Siyahısına transmilli seriya nominasiyası" adlanır. Söhbət bu qədim ticarət trassası üzərində yerləşən ölkələrin maddi-mədəniyyət abidələrinin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsindən gedir.

Məlum olduğu kimi, 1972-ci ildə YUNESKO tərəfindən qəbul olunmuş Ümumdünya mədəni və təbii irsin qorunması haqqında konvensiyasına əsasən Ümumdünya İrs Komitəsinin hər il keçirilən sessiyalarında bəşəriyyətin ən dəyərli mədəni və təbiət abidələrinə "Ümumdünya mirası" statusu verilir. Bu günə qədər Azərbaycanın iki abidəsi - Qobustan qayaüstü təsvirləri və İçəri Şəhər Tarixi-Memarlıq Kompleksi bu siyahıda öz yerini tapmışdır. Lakin zəngin maddi-mədəni irsə malik olan ölkəmiz bu sahədə daha çox nailiyyətlər əldə etmək potensialına malikdir. Bu baxımdan Azərbaycanın tezliklə YUNESKO-nun İpək Yolu seriya nominasiyası proqramına qoşulması bu sahədə qarşımızda geniş imkanlar aça bilər. Belə ki, proqramın ən mühüm şərtlərindən biri ondan ibarətdir ki, üzv ölkələr İpək Yolu ilə bağlı abidələrini Ümumdünya İrs Komitəsinə təkbaşına deyil, digər tərəfdaş ölkələrlə birlikdə vahid paket halında təqdim edirlər. Bununla yanaşı, hər ölkə eyni nominasiya çərçivəsində müxtəlif xarakterli abidələri (arxeoloji, memari və ya təbiət abidələri) təqdim etmək imkanına sahibdir. Abidələrin sayına da məhdudiyyət qoyulmur və beləliklə, hər ölkə eyni paket çərçivəsində layiq bildiyi abidələri Ümumdünya İrs Komitəsinə təqdim edə bilər.

YUNESKO-nun İpək Yolu seriya nominasiyası proqramı 2005-ci ildə Çin və Orta Asiya ölkələrinin iştirakı ilə başlamışdır. Proqram çərçivəsində ötən illərdə Almata, Turfan, Səmərqənd, Düşənbə, Sian, Aşqabad və Bişkek şəhərlərində dövlət nümayəndələri, yerli və xarici ekspertlərin iştirakı ilə bir neçə müşavirə keçirilmiş, ölkələr arasında əməkdaşlıq planı qəbul edilmiş, layihənin beynəlxalq Əlaqələndirmə Şurası yaradılmış, tarixən Çin və Orta Asiya ərazisindən keçən İpək Yolu marşrutları bir neçə "dəhlizlərə" bölünmüş və onların üzərində ciddi və gərgin iş aparılmışdır. Nəticədə iki "dəhliz" üzərində yerləşən İpək Yolu maddi-mədəni abidələrinin müştərək nominasiya sənədləri hazırlanaraq, Ümumdünya İrs Komitəsinə təqdim olunmuşdur. Bu təşkilatın 2014-cü ildə Qətərin paytaxtı Doha şəhərində keçirilmiş 38-ci illik sessiyasında Çin, Qazaxıstan və Qırğızıstan ərazisində "Tyan-Şan dəhlizi" üzərində yerləşən 33 tarixi abidə Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Bu hadisə layihədə iştirak edən ölkələr üçün böyük bir uğurdur. Çünki öz abidələrini YUNESKO-nun ümumdünya irs siyahısına daxil etməyə müvəffəq olan dövlətlər öz tarixi və mədəni mirasını dünyaya tanıtmaqla bərabər, həm də bu mirasın YUNESKO səviyyəsində qorunması və gələcək nəsillərə çatdırılması ilə bağlı beynəlxalq ictimaiyyət qarşısında ciddi öhdəliklər götürürlər. Digər tərəfdən, bu amil ölkəyə xarici turistləri cəlb edir və beynəlxalq turizmin inkişafına olduqca güclü təkan verir. Yeri gəlmişkən xatırladaq ki, ölkə başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə İpək Yolu mədəni turizm marşrutlarının layihələşdirilməsi və inkişafı məsələsinə xüsusi önəm verilir və 2020-ci ilədək onların üzərində yerləşən məntəqələrə 180 mindən artıq turistin cəlb olunması hədəf kimi göstərilir.

Təsadüfi deyil ki, son illərdə Hindistan, Rusiya, İran, Türkiyə, Cənubi Koreya, İtaliya və s. kimi bir sıra ölkələr YUNESKO-nun İpək Yolu seriya nominasiyası proqramına öz maraqlarını nümayiş etdirmiş və bəziləri yaxın zamanda ona qoşulmaq barədə öz niyyətlərini bildirmişdilər. Belə ki, keçən ilin oktyabr ayında Kazan şəhərində "Rusiya dünya mədəni irsində" mövzusunda keçirilən müşavirədə bu ölkənin mədəniyyət naziri V.Medinski və Tatarıstanın keçmiş prezidenti, YUNESKO-nun mədəniyyətlərarası dialoq üzrə xüsusi elçisi M.Şaymiyev YUNESKO-nun İpək Yolu seriya nominasiyası proqramının əhəmiyyətindən söz açaraq, bu proqramın Rusiya ərazisində yerləşən tarixi-mədəni abidələr üçün önəmli olduğunu söyləmişlər və artıq bu sahədə YUNESKO və beynəlxalq ekspertlər ilə ortaq iş planının hazırlandığını bəyan etmişdilər.

Hazırda bizimlə qonşu ölkələrin mütəxəssisləri bu sahədə Azərbaycanla sıx əməkdaşlıq etmək arzularını ifadə edirlər. Belə ki, Qazaxıstan və Rusiyanın İCOMOS nümayəndələri İpək Yolu sahəsində azərbaycanlı alimlərlə işbirliyinə hazır olduqlarını bildiriblər. Etiraf etmək lazımdır ki, bu sahədə ölkəmiz böyük potensiala malikdir və müvafiq qurumlar bu imkandan düzgün istifadə etməlidirlər. Qeyd edildiyi kimi, tarixən Şərqlə Qərbi və Cənubla Şimalı bir-birinə bağlayan Azərbaycanın ərazisi bu gün də İpək Yolunun parlaq izlərini daşıyır. Burada qədim şəhər yerləri, karvansaraylar, körpülər, qoruyucu qalaların qalıqları və memarlıq abidələri zəngin İpək Yolu tarixindən xəbər verir.

Qarşısına iqtisadiyyatın qeyri-neft sektorlarının, o cümlədən turizm sənayesinin sürətli inkişafını strateji bir hədəf kimi qoymuş dövlətimiz YUNESKO-nun İpək Yolu transmilli seriya nominasiyası proqramına tezliklə qoşulmaqla bir sıra tarixi abidələrimizi Ümumdünya İrs Siyahısına daxil etmək imkanı əldə edə bilər. Bu da öz növbəsində həm milli mədəniyyətimizin dünyada təbliğinə, həm də iqtisadi inkişafımıza xidmət baxımından önəmli bir addım olardı.

**Şahin MUSTAFAYEV,**
**akademik,**
**AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini,**
**YUNESKO-nun İpək Yolu Onlayn Platforması beynəlxalq bürosunun vitse-prezidenti.**